İdeya müəllifi: El Presidente
Redaktor: Fidan Namazova
PR: İkram Nəsirov
Dizayner: Nathan Kamanga

# The Interview Times.

*Buraxılış No.1* *Dekabr, 2021* *Pulsuz*

## Aysel Abbasova




*ADA Universitetində ingilis dili müəlliməsi işləyir. Bundan öncə o, Britaniya Konsulluğunda, Heydər Əliyev adına Ali Hərbi Məktəbdə və eyni zamanda ABŞ-ın Azərbaycandakı səfirliyində "freelance tərcüməçi" kimi çalışıb. Bakalavr və magistr təhsilini Azərbaycan Dövlət Dillər Universitetində, fəlsəfə doktoru dərəcəsini isə Azərbaycan Milli Elmlər Akademiyasında alıb. Ailəlidir, 2 övladı var.*

***Deyilənə görə Aysel müəllimə İraqda dünyaya gəlib. Bu doğrudur?***

- Bəli, Bağdadda. Atam uzun illər İraqdakı Sovet hökümətinin səfirliyində çalışıb. Mən də həmin illərdə dünyaya gəlmişəm. Doğrusu ömrümün cəmi 4 ili orada keçdiyindən İraqla bağlı heç bir xatirəm yoxdur. İran -İraq müharibəsi başlayandan bir müddət sonra atam bizi Azərbaycana geri göndərdi. Mən faktiki olaraq 3 müharibə dövrünü yaşamışam

***Bugünədək hələ də sizdən narazı qalan tələbə görməmişəm, övladlarınız necə bəs, bir müəllimə kimi sizdən razıdır?***

- (Gülür) Doğurdan? Əslində məni sevməyən də tələbələr 100 % var və olacaq. Əsas odur ki tələbələr məni aldıqları qiymətlərə görə deyil, mənim köməyimlə inkişaf etdirdikləri bacarıqlarına görə, dərslərdə qoyduğum əməyə, istifadə etdiyim metodikaya görə qiymətləndirsinlər. Mən həmişə ucuz (yəni yuksək qimətə söykənən ) tələbə sevgisindən qaçmışam. Eybi yox, qoy məndən 10 tələbə narazı qalsın, amma mən öz prinsiplərimə, ADA-nın dəyərlərinə sadiq qalım. Mən qızıma ingilis

dili dərsi keçirəm, narazılığı bəzən ondan ibarət olur ki, sizə göstərdiyim səbri ona göstərə bilmirəm. Özümü də ona görə qınayıram, əslində. Məsələn, çox qəribədir ki, tələbələrim eyni sualı bir neçə dəfə versələr də hövsələdən çıxmıram və təmkinlə onların suallarını cavablandırıram. Ən pis halda səbirsizliyimi biruzə etməməyə çalışıram.

***Həyat yoldaşınızın şəxsi startup layihəsi var və artıq şirkət olaraq fəaliyyət göstərir. CEO yoldaşı olmaq necə bir hiss-dir?***

- CEO deyil, əsas təsisçilərdən biridir. Çox yaxşı bir hissdir, mən yoldaşım ilə qürur duyuram, çünki Vaqif hər şeyə öz əziyyəti, savadı və bacarığı ilə nail olub. Başqa sahələrin insanları olsaq da ondan çox şey öyrənmişəm. Məsələn, son iki il ərzində magistr və bakalavr tələbələrinə "Business Communication" dərsini deyərkən yoldaşımdan biznes sahəsində çoxlu praktiki və nəzəri biliklər öyrənmişdim.



***Aysel müəlliməyə qiymət artımı ilə bağlı tələbə yaxınlaşanda, güzəştə gedirmi?***

- Əvvəllər gedirdim (sizin vaxtınızda). Bir məqamda hiss elədim ki, nə qədər güzəştə gedirəmsə, tələbələr bunu adi hal kimi qəbul edir və bundan sui-istifadə edirlər. Xüsusilə də bir hadisədən sonra özümə söz verdim ki artıq heç bir tələbəyə kimliyindən asılı olmayaraq güzəştə getməyəcəm. Hətta elə tələbələrim olub ki çox cüzi balla ya mənim kursumdan kəsilib ya da aşağı bal yığıblar. Mən özüm də bunun əziyyətini daxilən çəksəm də prinsiplərimə qarşı çıxmamışam.

***Hər hansı bir inşada sizcə daha önəmli olan hissə hansıdır? Giriş, orta yoxsa sonluq hissə?***

- Mən bu suala "Listening and Speaking" müəllimi olaraq cavab vermək istərdim. Zənnimcə giriş və nəticə hər bir nitqin ən vacib hissələrindən biridir. Çıxış edən insan nitqinə elə başlamalıdır ki, onun auditoriyası öz telefonlarını bir kənara qoyub dinləməyə başlasınlar. Təbii ki, giriş hıssəsi həm də özündə dinləyicinin marağına səbəb olacaq, onun üçün vacib ola biləcək məqamları əks etdirməlidir. İlk andan auditoriya bu nitqin onlar üçün faydalı olacağına inanmalıdır. Əgər giriş söylənəcək fikirlərə diqqətinin cəmlənməsində rol oynayırsa nəticə bu fikirlərin yaddaşlarda uzun müddət qalmasında xidmət edir. Əlbəttə ki, bu məsələ ilə bağlı deyiləcək başqa vacib məqamlar da var.

***Bildiyim qədərilə atanız çox sərt və zəhmli biri olub. Hətta siz gənc ikən belə hər kəs evdə axşam saat 10-dan sonra yatmalı imiş. Həmin dövrü necə xatırlayırsınız?***

- (Gülür). Bunu haradan bilirsiniz? Biz də bacımla qapını çarşafla bürüyürdük ki, otaqdan kənara işıq düşməsin və gizlincə dərslərimizi oxuyurduq. Düzdür, o vaxtlar atamı anlamırdım və hirslənirdim də. Amma indi nəyə görə belə etdiyini, saat 9-12 arası yuxunun nə qədər insan üçün vacib olduğunu başa düşürəm. Saat 9 və ya 10 olan kimi, atam bizi yatmağa göndərirdi və indi anladım ki, düz edib. Həmin vaxt müddətində insanın aldığı yuxu ən vacibdir.

***Hərbi məktəb adı gələndə ilk öncə oğlan uşaqları ağıla gəlir. Ancaq Aysel müəllimənin həyatı bir müddət hərbi məktəblə kəsişib. Bu necə olub?***

- Mən, Xarici Dillər Universitetini bitirməmiş, magistraturanın ikinci kursunda oxuyanda, yaxın rəfiqəm (Ruqiyyə Əlibəyova) təklif etdi ki, gedək birlikdə 1-2 il müəllimə kimi işləyək. Əslində mən özümü heç müəllimə kimi görmürdüm və müəllimə olmaq istəmirdim, düzünü deyim, özümü tamam başqa istiqamətdə sınamaq istəyirdim. Və həmin təklifi qəbul edəndə fikirləşdim ki, 1 il işləyib təcrübə yığaram və sonra karyeramın arxasınca gedərəm. Lakin sən saydığını say gör fələk nə sayır. Bu bir il ərzində müəllimlik sənətini o qədər çox sevdim ki, dəfələrlə digər sahələrə işləməyə getsəm də yenə də müəllimliyə qayıtdım. Məsələn, qisa muddət ərzində qeyri-hökumət təşkilatında, daha sonra Amerika səfirliyində sərbəst tərcüməçi kimi çalışdım, amma gördüm ki, bu işlərdə mən müəllimlikdəki qədər məmnunluq hissi almıram.

***Eşitdiyimə görə siz Barak Obama ilə görüşmüsünüz. Bu doğrudur?***

- (Gülür). Bilirdim ki, bu sualı verəcəksiniz. Amerika səfirliyində çalışarkən, uzun müddətli bir layihə var idi, "Kütləvi Qiğın Silahlarının Tətbiqinin və Yayilmasının Qarşısının Alınması" layihəsi. Birləşmiş Ştatlardan gələn bir çox

nümayəndə heyətləri, senatorlar və bizim yüksək rütbəli məmurlar arasında tez-tez görüşlər olurdu. Və bir gün mənə dedilər ki, iki senator gələcək və səni həmin görüşlərə cəlb etmək istəyirik. Əvvəl istəmədim, çox çətin mövzu olduğuna görə çəkindim, lakin sonra bir yaxın tanışımdan məsləhət aldım və o, mənə gözəl bir söz dedi: "Heç vaxt demə ki mən bunu edə bilmərəm, de ki, eləməliyəm". Həmin məsləhət mənim qulağımda sırğa olub və vacib məsələ ilə bağlı qərar verməli olanda özümə bu sözü həmişə xatırladıram. Hə... Beləcə razılaşdım və neçə gün gecə-gündüz görüşə hazırlaşdım, mövzuya dair məqalələr oxudum və görüş günü çox həyəcanlı idim, əlim ayağım əsirdi amma Barak Obama o qədər mehriban adam idi ki, onun ilə bir iki kəlmə danışandan sonra aurası məni sakitləştirdi. Ən maraqlısı da odur ki, Obama bir-iki ildən sonra Prezident oldu, ayağım düşdü (gülür).



***Barak Obama ilə növbəti dəfə görüşmək imkanınız olsaydı ona sözünüz nə olardı?***

- Əslində bizim görüşümüzdən sonra, onun çıxışlarına bir "Public Speaker" kimi çox baxdım. Onun çox mükəmməl nitqi var və buna görə də natiqlik bacarığı ilə bağlı suallar verərdim. Prezidentliyi ilə bağlı sual verməzdim, çünki siyasət ilə o qədər də maraqlanmıram.

***Mən özüm də hərbi xidmətdə olmuşam və təcrübə etdiyim qədərilə hərbçilər sərt, zəhmli və bir az da göstəriş verməyi sevən biriləri olurlar. Yoldaşınız da bir zamanlar hərbçi olub. Ailə daxili münasibətdə hərbçi yoldaşı olmaq çətin olmayıb ki?***

- Vaqif (yoldaşım) mənim bu həyatda verdiyim ən çətin və ən doğru qərarım olub. O, gözəl ailə başçısı, qayğıkeş ve çox təmkinli bir insandir. Hərbdə dediyiniz o sərtlik onda qətiyyən yoxdur. Düzdur, əsl hərbçi kimi çox punktual və işində disiplinlidir. Amma mən ümumiyyətlə hərbçilərlə bağlı bu stereotipi qəbul etmirəm. İş başqa, şəxsi həyat başqa.

***Çox gözəl rəsm çəkməyi bacarır və eyni zamanda pianinoda ifa etməyi bilirsiniz. Başqa nə kimi bacarıqlarınız var?***

- Mahnı oxuya bilərəm, pis-yaxşı bacarıram. Yeməklərimi də bəyənirlər, xüsusən, qazan plovu (gülür). Ümumiyyətlə, yaradıcı işlərə həvəsim var.

***Son olaraq tələbələrə sözünüz nə olardı?***

- Əslində çox şey deyə bilərdim, amma lakonik olmalıyam. Səhv eləməkdən qorxmayın! Bunu həmişə tələbələrimə deyirəm. Hər bir uğursuzluğumuz əslində bizi uğura aparan bir pillədir. Təbiiki, səhvlərimizdən nəticə çıxartdığımız halda, etdiyimiz səhvlər bizi yarı yolda qoymamalıdır, məqsədlərimizə doğru yürüşümüzdə bizə, əksinə kömək olmalıdırlar. Bir də heç vaxt deməyin "Mən bunu edə bilmirəm. Deyin hələ edə bilmirəm. Amma, istəsəm, cəhd göstərsəm edəcəm!"

*Sualları hazırladı və müsahibəni götürdü:*

*El Presidente*




The
Interview Times.